# KƏLBƏCƏR RAYONUNDA AZƏRBAYCAN RESPUBLİKASININ "QIRMIZI KİTAB"I İLƏ BAĞLI MÜŞAHİDƏLƏR

**Elşad Əsgərov**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Zoologiya İnstitutu*
*Vəhşi Təbiəti Mühafizə Fondunun (WWF) Azərbaycan ofisi, easkerov@wwfcaucasus.org*

Kəlbəcər rayonuna təşkil edilmiş 3 səfərdə regionda Azərbaycan Respublikasının "Qırmızı kitab"ına düşmüş məməli heyvan növlərindən Avropa cüyürü (*Capreolus capreolus*), Bezoar keçisi (*Capra aegagrus*), Qonur ayı (*Ursus arctos*) müşahidə edilmişdir. Adları çəkilən növlərdən Qonur ayını daha çoxsaylı hesab etmək olar. Ötən ilə nisbətən cüyür və keçilər az müşahidə edilmiş, qanunsuz ov səbəbindən bu növlər daha ucqarlara çəkilməyə məcbur olmuşlar, halbuki keçən il bu heyvanlar daha tez-tez və yaxın məsafələrdən müşahidə olunurdu. Bunu ərazidə məskunlaşan əsgərlərin və mülki vətəndaşların mobil telefon kamerası ilə çəkdikləri foto və videolardan da aydın görmək mümkündür.

Bundan əlavə, yaylaqlara çıxmış çobanlarla keçirilmiş sorğu zamanı iki halda bəbir (*Pantera pardus*) müşahidə olunduğu bildirilmişdi. Növbəti həftədən müşahidələr xüsusi kamera-tələlər vasitəsilə aparılmağa başlanacaqdır.

Azərbaycan Respublikasının "Qırmızı kitab"ına daxil edilmiş və vaxtilə rayon ərazisində nəsli tam kəsilməyə yaxın olan Qafqaz tetrası (*Lyrurus mlokosievochi*) populyasiyalarının yayıldığı stansiyalarda bərpası müşahidə edilmişdir. Onların yaşayış məskənində təxminən 3 km uzunluğunda marşrut boyunca 2 dişi fərd qeydə alınmışdır.